# Peşəkar jurnalistikamızın yetirməsi

**1973-cü ilin sentyabrında ovaxtkı Azərbaycan Dövlət Universitetində (indiki BDU) qəbul imtahanları geridə qalmışdı. Jurnalistika fakültəsinin əyani şöbəsinə daxil olan 50 tələbənin siyahısında mən 13-cü idim. Qalan 49 tələbənin heç birini tanımırdım. Dərslər yenicə başlamışdı. Ayrı-ayrı bölgələrdən gəlmişdik, ilk tanışlıq və dostluq münasibətləri yaranırdı. Bir neçə gündən sonra hiss etdim ki, qrup yoldaşlarımın arasında Yusifə daha çox bağlanıram. Üstündən 53 il keçsə də, bu seçimimə görə peşman olmamışam.**

Universitetin jurnalistika fakültəsi tələbələrin sayına görə kifayət qədər yığcam fakültə sayılırdı. Kurs fərqi hiss olunmur, hamı bir-birini yaxından tanıyır, az qala, bir ailənin üzvləri kimi dolanırdı. Həm də peşəmizin xarakterindən gələn bu doğmalıq tələbəçilik dönəmindən sonrakı illərdə də fakültənin məzunları arasında həmkar münasibətləri, bir çox hallarda dostluq əlaqələri kimi davam edərdi. Rəhmətlik tələbə yoldaşımız Qəzənfər Qəribovun sözləridir: "Jurnalistika fakültəsinin tələbələri, sanki, bir-birinə qohumdurlar".

Yusif Hüseynovla bir-birimizə o qədər isinişdik ki, qısa müddətdən sonra nəinki doğmalarımızı, uzaq qohumlarımızı belə qiyabi tanıyır, onları əzizlərimiz kimi qəbul edirdik. Yusifin atası – Böyük Vətən müharibəsi əlili Həsən əmi, anası Zemfira xala, böyük bacısı Yaqut müəllim məni Yusifdən ayırmırdılar. Tam əminəm ki, Yusif də mənim doğmalarıma eyni saygı ilə yanaşırdı. Kəndə, evimizə yolum düşəndə atamın ilk suallarından biri bu olardı: Yusif necədir?

BDU-nun jurnalistika fakültəsində tələbə və müəllimlər arasında, həqiqətən, çox doğma, səmimi mühit var idi. Digər fakültələrdə tələbələri incitməklə kimlərdənsə "hayıf çıxan" bəzi "əzazil" müəllimlər professor Şirməmməd Hüseynovun dekanı olduğu jurnalistika fakültəsində "at oynada" bilmirdilər. Çünki əziz müəllimimiz haqsız yerə incidilən tələbənin arxasında dayanırdı. Pis oxuyan, məsuliyyətsizlik edənlər isə universiteti vaxtından əvvəl "tərk etməli" olurdular.

Yusif orta məktəbi "əla" qiymətlərlə bitirmişdi. Əgər istəsəydi, o illərdə çoxları üçün əlçatmaz görünən hüquq fakültəsinə də daxil ola bilərdi. Amma bir qədər əvvəl söylədiyim kimi, qəlbimizdə jurnalist peşəsinin qeyri-adi gücünə inamımız o qədər böyük idi ki, ondan niyə hüquq fakültəsinə sənəd verməməsinin səbəbini soruşmağa lüzum görmürdüm. İndi fikirləşirəm ki, nə yaxşı Yusif hüquq fakültəsini bitirib müstəntiq, prokuror və ya hakim olmaq istəməyib. Axı o qədər həlim ürəyə, yumşaq xaraktere malikdir ki, onun, hətta qanunu pozmuş kimisə cəzalandıra biləcəyini heç cür ağlıma sığışdıra bilmirəm.

Yusiflə 3 il bir kursda oxuduqdan sonra, təhsilimi davam etdirmək üçün M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin (MDU) jurnalistika fakültəsinə göndərildim. Orada təhsil aldığım 3 ildə Yusif ikimizin də dostu Etibar Mürsəliyev (42 yaşında dünyasını dəyişib) adlı qrup yoldaşımızla Moskvaya gələrək mənə baş çəkdi. Yusifin təşəbbüsü ilə üçümüz bir yerdə əvvəlcə məşhur Tretyakov adına Rəsm Qalereyasını ziyarət etdik, sonra "Köhnə Arbat"da yerləşən Moskva Operetta Teatrında dahi bəstəkarımız Qara Qarayevin "Çılğın qaskoniyalı" müziklinin premyerasına getdik.

...1979-cu ildə MDU-nu bitirib Bakıya qayıdanda Yusif respublikanın aparıcı qəzetlərindən birində çalışırdı. Qısa müddət keçəndən sonra Politologiya İnstitunu (əvvəllər partiya məktəbi adlanırdı) fərqlənmə diplomu ilə bitirdi, Azərbaycan KP MK-nın nəzdində fəaliyyət göstərən Partiya Tarixi İnstitutunda çalışdı. Burada onun əsas vəzifəsi şəhər və rayon partiya komitələrinin büro və plenum iclaslarının sənədlərinin düzgün tərtib edilərək qrafikə uyğun institutun arxivinə təhvil verilməsinə nəzarət etmək idi. Bu işə məsul olan şəxslərə məsləhətlərini verən Yusif onlara hər cür köməklik göstərir, qayğısını əsirgəmirdi.

Onun tapşırılan məsul vəzifənin öhdəsindən



uğurla gəlməsi bir müddət keçəndən sonra ölkənin ali icra hakimiyyəti orqanına – Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına işə dəvət olunmasına səbəb oldu. Dostumun karyera yüksəlişində əsas rol oynayan amil onun intizamlı və məsuliyyətli insan olması idi. O, eyni zamanda, çox mehriban və təşəbbüskar şəxsdir. Çox səbirlidir, hamı ilə dil tapmağı bacarır. Amma milli dövlətçilik maraqları olan yerdə qətiyyətli və prinsipial mövqeyindən geri çəkilməyib.

Yusif Hüseynov artıq illər keçəndən sonra o çətin, gərgin dövrü belə xatırlayır: "1980-ci illərin sonu idi. O dönəmdə respublikanın ictimai-siyasi həyatında təzadlı proseslər baş verirdi. Bir tərəfdən erməni separatçıları Kremlin gizli dəstəyilə Qarabağda aranı qarışdırır, o biri tərəfdən idarəçilik strukturlarında yaranan boşluqlar cəmiyyətdə gərginliyin artmasına gətirib çıxarmışdı. Nə yaxşı ki, ulu öndər Heydər Əliyev xalqın israrlı tələbi ilə 1993-cü ilin yayında ölkədə siyasi hakimiyyətin sükanı arxasına keçdi. Bu dahi siyasətçi olmasaydı, Azərbaycan onu gözləyən dəhşətli uçurumdan xilas ola bilməyəcəkdi".

Vaxt keçdi, vədə yetişdi və özünə məslək seçdiyi peşəkar jurnalistikada yenidən öz sözünü deməsi üçün həyat Yusif Hüseynova fürsət yaratdı. 2005-ci ilin avqustunda Azərbaycanda ilk ictimai yayım institutu – İctimai Teleradio Şirkəti fəaliyyətə başlayanda o, müsabiqə yolu ilə işə qəbul olundu və uzun illər burada həvəslə çalışdı.

İctimai Televiziyada onunla bir departamentdə işləyən, hazırda "Xalq qəzeti"nin ictimai-siyasi şöbəsinin müdiri, tanınmış jurnalist İmran Bədirxanlı deyir ki, Yusif Hüseynov rus dilini yüksək səviyyədə bildiyi üçün onun ana dilimizə çevirdiyi çox sayda əcnəbi filmlərin tərcümə keyfiyyətinə söz ola bilməzdi. O, bilik və təcrübəsini telekanalın gənc əməkdaşları ilə bölüşməyi özünə mənəvi borc bilirdi. Elə buna görə kollektivdə hamı onun xətrini çox istəyirdi.

Martın 10-da unudulmaz tələbəlik illərimin dostu, istedadlı jurnalist, naşir və tərcüməçi Yusif Hüseynovun 70 yaşı tamam olur. İndi o, təqaüddədir. Düşünürəm ki, dostları, yaxın və doğmaları yubilyarın jurnalist peşəsinə, xalqına, dövlətçiliyimizə sədaqətlə xidmətdə keçən mənalı ömür yolu ilə fəxr etməyə haqları var. Əlbəttə, ən çox Yusif Hüseynovun buna haqqı çatır!

***Məsaim ABDULLAYEV***
***XQ***

Xalq qəzeti .- 2026.- 7 mart (№ 44).- S.15.